KARTOFÇULUQDA İSTİFADƏ OLUNAN TEXNİKAYA NORMALARIN TƏYİNİ

E.A.PAŞAYEV, E.M.NAĞIYEV, texnika elimləri namizədləri
Azərbaycan ET «Aqromexanika» İnsititutu

Kartof dünyada ən çox yayılan ərzaq bitkilərindən biridir. El arasında ikinci çörək adlanır. Kartofun tərkibində 16-24% karbohidrat (kraxmal), 2% zülal birləşmələri, C, B_1, B_2, PP, A və başqa vitaminlər - kalium, natirium, kalsium, manqan, fosfor, dəmir və bitkilərdə təsadüf edilən hər növ amin turşuları müəyyən edilmişdir.

Ümumiyyətlə, kartofun tərkibində 26 kimyəvi element vardır.

Kartofun vətəni Mərkəzi və Cənubi Amerika olub, iki min il öncə insanlara məlum olub. Avropaya XVI, Rusiyaya XVIII əsrin əvvəllərində gətirilib. XIX əsrin ikinci yarısında geniş yayılmağa başlayıb.

Respublikada orta hesabla 57 min ha kartof əkilir. Ən çox yayılan Lorx, Priyekulskiy, Laymdota, Qusarçay, Əmiri və Sarma növləridir.

Kartof mülayim və nəmli iqlim şəraitində yetişir. Havanın istiliyi 17-22^0 olduqda yaxşı inkişaf edir. 25^0S-də inkişaf zəifləyir və 30^0S-də tamamilə dayanır. Bioloji xüsusiyyətlərini nəzərə alaraq, kartof başlıca olaraq dağlıq və dağətəyi rayonlarda əkilir. Aran rayolarında isə iki dəfə faraş (tezyetişən) kartof yetişdirmək mümkündür. Fevral-mart aylarında əkilir, may-iyun aylarında yığılır. İkinci dəfə iyulun axırlarında əkilir, oktyabr, noyabr aylarında yığılır.

Hal-hazırda respublikada hər hektardan orta hesabla 100-120 s məhsul götürülür.

Normativlərin işlənməsində əsas məqsəd respublikanın fermer təsərrüfatlarında traktor və kənt təsərrüfatı maşınlarına olan tələbatın elmi əsaslarla təyin edilməsidir. Bundan başqa, kənt təsərrüfatı texnikasının [illegible] sərfi normalarının işlənməsi vacib [illegible]

Yuxarıda qeyd edilənləri nəzərə alaraq, respublikamızın Gəncə – Qazax bölgəsi üçün kartofçuluq üzrə tələbat normativləri standart metodikalar /1,2,3/ üzrə hesablanmışdır.

Mexanikləşdirmə vasitələrinə olan tələbatı dəqiq ifadə edən ən geniş yayılmış metod texnikanın məhsuldarlığı və yerinə yetirilmiş işin tam həcminə görə və aqrotexniki vaxtlar nəzərə alınmaqla texnikaya olan tələbatın təyin olunmasıdır.

Texnikaya tələbatı təyin etmək məqsədilə, vahid əkin sahəsinə görə texnoloji xəritələr işlənməlidir.

Texnoloji xəritə əkin dövriyəsində növbəliyi nəzərə almaqla, hər bir kənd təsərrüfatı bitkisi üçün təyin edilir. Texnoloji xəritə tərtib edilərkən, aşağıdakı ardıcıllıq yerinə yetirilmişdir.

- təsərrüfatlarda olan aqrotexniki tələblər, bölgənin torpaq və iqlim şəraiti nəzərə alınmışdır;

•bitkinin becərilməsi üçün, mexanikləşdirilmiş işlərin həcmi, yerinə yetirilmə müddəti, aqreqatın tərkibi və saatlıq iş norması, gün ərzində işin davam etmə müddəti göstərilmişdir.

Yuxarıda göstərilənləri nəzərə alaraq, kartofun becərilməsi və yığılmasının texnoloji xəritəsi işlənmişdir (cədvəl 1).

Maşınlara tələbat aşağıdakı düsturla təyin edilmişdir:

$$M = U \cdot K / W_m,$$

burada U - aqreqatın ilin gərgin dövrünə düşən iş həcmi, ha, ton, t·km; K - aqreqatda maşınların miqdarı (sayı) ədəd; W_m - gərgin dövrdə aqreqatın mövsüm ərzində məsuldarlığı (istehsal norması), ha, ton və i.a.

Qeyd edilənləri nəzərə alaraq, Gəncə-Qazax bölgəsi üçün kartofçuluqda traktor, kombayn və kənd təsərrüfatı maşınlarının tələb olunan miqdarı təyin edilmişdir (cədvəl2).

Maşınlara tələbat məlum metodika ilə /3/ təyin edilmiş və 2-ci cədvəldə göstərilmişdir. Aşağıdakı cədvəldən göründüyü kimi, Gəncə-Qazax bölgəsində, 32409 ha kartof əkilmiş sahəni becərmək və yığmaq üçün 248 ədəd [illegible] traktor, 248 ədəd PN-4-35 markalı kotan, 342 ədəd BZTS-1,0 tipli ziq-zaq mala, 122 ədəd KSM-4markalı kartof basdıran maşın, 328 ədəd MTZ-80/82 markalı traktor, 333 ədəd KON-2,8 markalı kultivator, 25 ədəd MVU-0,5 markalı mineral kübrəsəpən, 44 ədəd 2 PTS-4-793 A+RTO-4 markalı peyinsəpən, 328 ədəd KTN-2 V markalı kartofçıxaran və 49 ədəd OP-2000-2 markalı çiləyici lazımdır.

Cədvəl 1. Kartofun becərilməsi və yığılmasının texnoloji xəritəsi (sahə 10 ha, məhsuldarlıq 10 t/ha)

Əməliyyatın adı	Aqrotexniki tələbat	Aqreqatın tərkibi		Aqreqatın 7 saatda məhsuldarlığı, ha	Təqvim vaxtı	İş günlərinin sayı	Yanacaq sərfi, kq/ha
		Traktorun çəkici qüvvəsi, kN	Kənd təsərrüfatı maşını				
Mineral gübrələrin səpilməsi	P 300 kq/ha K 300 kq/ha	14	MVU-0,5	10	1 -5. X	1	8
Peyinin səpilməsi	20 ton/ha	14	2PTS-4-793A + RTO - 4	5	6-20.X	2	12
Şum	28-30 sm	30	PLN-4-35	2	20-30.X	5	25
Kartofun toxumunun seçilməsi və dərmanlanması	70 l/ton su	Əl ilə	Əl ilə	-	-	-	-
Əkin	8-10 sm	14	KSM-4	2,8	20-30.IV	5	12
Malalama	3-4 sm	14	KON-2,8	5	10-15.V	2	8
I kultivasiya	8-10 sm	14	KON-2,8	5	25-30.V	3	10
Gübrə verməklə dibdoldurma, azot 100 kq/ha	15-16 sm	14	KON-2,8	5	5-10.VI	3	10
Ketmənləmə	Əl ilə	-	-	-	5-10.VI	5	-
II kultivasiya	10-12 sm	14	KON-2,8	4	10-15.VI	3	10
I dərman çilənməsi	400 l/ha	14	OP-2000-2	10	20-30.VI	2	10
II dərman və maye gübrə çilənməsi	400 l/ha	14	OP-2000-2	10	1-5.VII	1	10
Kartofun çazılması	16-18 sm	14	KTN-2V	2	1-10.IX	5	25
Kartofun yığılması və fraksiyalara ayrılması	Əl ilə	-	-	-	1-10.IX	5	-
Toxumluq kartofun dərmanlanması və anbara daşınması	Əl ilə	-	-	-	10-20.IX	5	-
Cəmi yanacaq sərfi :							140 kq

Qeyd: Aran bölgələrində kartof əkini vaxtaşırı 2-3 dəfə suvarılır.

Cədvəl 2. Gəncə-Qazax bölgəsi üzrə kartofçuluqda traktor, kombayn və kənd təsərrüfatı maşınlarının tələb olunan miqdarı.

Rayonların adı	Kartofun əkin sahəsi, ha	DT-75 (T-4)	KSM-4 kartof-basdıran	KON-2,8	KTN-2 kartof qazan	PLN-4-35	MVU-0,5	Ziq-zaq mala BZTS-1,0	OP-2000 -2	MTZ - 80/82	2PTS-793 A+RTO
Ağstafa	460	4	2	5	6	4	1	6	1	6	1
Daşkəsən	1050	8	4	11	8	8	1	12	2	8	2
Gədəbəy	12454	95	46	128	104	95	8	129	8	104	15
Goranboy	261	2	1	3	3	2	1	3	1	3	1
Xanlar	874	7	4	9	10	7	1	9	2	10	2
Qazax	270	2	1	3	3	2	1	3	1	3	1
Samux	141	1	1	2	2	1	1	3	1	2	1
Şəmkir	5319	41	20	55	60	41	4	57	10	60	7
Tovuz	11580	88	43	117	132	88	7	120	22	132	14
Cəmi:	**32409**	**248**	**122**	**333**	**328**	**248**	**25**	**342**	**49**	**328**	**44**

Hesabata görə, Gədəbəy rayonuna 142 ədəd KTN-2 V markalı kartofqazan düşür. Lakin nəzərə alsaq ki, kartof əkininin müəyyən faizi həyətyanı sahələrdə olduğundan və texnikadan istifadə səmərəli olmadığından kartofqazanların miqdarını 104 ədədə qədər azaldılması məqsədəuyğun hesab edilir. Reallıqda bu xeyli az da ola bilər. Eynilə Daşkəsən rayonu üçün düzəlişlər edilib.

Nəticədə regonların sosial–iqtisadi inkişafı proqramının həyata keçirilməsində aqroservis xidmətlərinə xüsusi yer verildiyini nəzərə alaraq, aqroservis xidtətlərinin təşkilində yuxarıda verilmiş hesabatlar nəzərə alınacaqdır.

ƏDƏBİYYAT

1.Методика расчётов потребности сельского хозяйства в тракторах, комбайнах и сельскохозяйственных машинах. М., 1978. **2.**Методика разработки нормативов годовой загрузки сельскохозяйственных машин (в часах, условных и физических единиц работы). М., 1982. **3.**Методика расчётов потребности сельского хозяйства в тракторах, комбайнах, транспортных средствах сельскохозяйственных и землеройных машинах и оборудовании животноводческих ферм. М., 1982.